# İşğalçı ölkənin əhalisi problemlər məngənəsində





***Ötən il BMT Baş Assambleyasında çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyan 2018-ci ilin dekabrında keçirilmiş seçkilərə toxunaraq demişdi: "25 il ərzində ilk dəfə bu seçkilər və onun nəticələri hamılıqla qəbul edilmiş və heç bir siyasi partiya tərəfindən şübhə altına alınmamışdır... Biz hakimiyyətə gələndən dərhal sonra heç vaxt ölkəmizdə olmayan demokratik təsisatların yaradılması üçün ciddi addımlar atmağa başladıq". Üstündən qısa bir zaman keçməsinə baxmayaraq, Paşinyanın söylədiklərinin sabun köpüyündən başqa bir şey olmadığı aşkara çıxdı. Məlum oldu ki, hünəri yalnız güc tətbiq etməklə xalqı kölə halında saxlamaq və mütiləşdirməyə çatan bu təsadüfi rəhbər Ermənistanı sürətlə iflasa aparır.***

Ermənistan üçün hər ötən ay və il ciddi sosial-iqtisadi problemlərlə müşayiət olunur. Təsadüfi deyil ki, xalq arasında narazılıq get-gedə güclənir və əmək qabiliyyətli əhalinin böyük hissəsi normal həyat üçün xaricə üz tutur.

Çətinliklər Ermənistanda sosial-iqtisadi çökmə proseslərini daha da sürətləndirib. Ölkənin üzləşdiyi tənəzzül günbəgün dərinləşir. Bu, özünü ilk növbədə əhalinin yaşayış səviyyəsində, maddi gəlirlərin azalmasında, inflyasiyanın kəskinləşməsində qabarıq büruzə verir. Mövcud durum ölkədə xaos vəziyyəti yaradır, hətta erməni ekspertlərinin özləri belə qeyd olunan zəmində sosial iğtişaşların artacağına dair ciddi həyəcan təbili çalırlar.

Hadisələrin bu səpkidə inkişafına əsas yaradan ən önəmli səbəb Ermənistanın hazırkı hakimiyyətinin yarıtmaz idarəetmə metodlarıdır. Demokratiya dalğasında hakimiyyətə yiyələnən baş nazir Nikol Paşinyanın sələflərinin işğalçılıq siyasətini davam etdirməsi üzündən Ermənistanın regionda təcrid vəziyyətinə düşməsi, bölgənin transmilli layihələrdən kənarda qalması, zəif xarici iqtisadi əlaqələrə malik olması durumu ağırlaşdıran amillərdəndir. Hakimiyyətin səriştəsiz idarəçiliyi ölkədə daha ciddi təhlükələr vəd edir. Erməni cəmiyyətində sosial narazılığın artım "dinamika"sı hətta vəziyyətin idarəolunmaz həddə çatacağını vəd edir. Üstəlik, COVID-19 pandemiyasının ikinci dalğasının başlanacağı təqdirdə ölkə iqtisadiyyatının tamamilə çökməsi labüd olacaq. Onsuz da Ermənistan dünya miqyasında koronavirusla bağlı ən dramatik vəziyyətin hökm sürdüyü ölkələr sırasındadır. Rəsmi rəqəmlərə əsasən, burada virusa yoluxanların sayı 45 minə çatır. Əhalisi qonşularından xeyli az olan Ermənistanda bugünədək 1000-ə qədər insan pandemiyanın qurbanı olub.

Xarici mətbuatın təhlilinə görə, koronavirusla mübarizənin əsas çatışmazlıqları 2018-ci ilin "məxməri inqilab"ından sonra dəfələrlə ortaya çıxan eyni problemlərə aiddir: forsmajor vəziyyətə yeni kadrların hazır olmaması və təcrübəsizlik, bəzi dövlət orqanlarının iflic durumda olması, ölkədəki böhranın və daxili siyasi problemlərin həll olunmaması vəziyyəti daha da qəlizləşdirib. Səriştəsizlik Ermənistan hökumətinin "Axilles dabanı"na çevrilib, məmurların kəskin qarşıdurmaları ölkəni pandemiyaya qarşı savaş açmağa qoymayıb.

Pandemiya fonunda sosial-iqtisadi çətinliklər məngənəsində sıxılan Ermənistanda demoqrafiya problemi də artaraq daha gərgin mərhələsinə qədəm qoymaqdadır. Görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, imkan düşdükcə xaricə köçənlər artır. Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanan xəbərdarlıqlarının çoxalmasına səbəb olub.

Nankor qonşularımız özləri də açıq etiraf etməyə məcburdurlar ki, Amerika və Avropa iqtisadiyyatında yaranan çətinliklər yeni dünya böhranına rəvac verərsə, Ermənistan daha böyük sosial-iqtisadi problemlərlə üzləşəcək. Çünki koronavirus Ermənistanın onsuz da bərbad durumda olan iqtisadiyyatına böyük zərbə vurub. Elə bunun nəticəsidir ki, böhranın özünün zirvə nöqtəsinə çatdığı cari ilin aprel ayından bəri Ermənistanda böyük tənəzzül yaşanır.

Kənardan adi bir baxışla da görmək mümkündür ki, Nikol Paşinyanın "taxt"a çıxdığı iki il ərzində Ermənistanda heç bir rəqabətədavamlı istehsal sahəsi yaradılmayıb, özəl sektor tam məhvə sürüklənib, infrastruktur isə ya yoxdur, ya da bərbad haldadır. Əhalinin sosial təminatından isə danışmağa belə dəyməz. Ermənistana kənardan heç kim sərmayə buraxmır, ölkənin iqtisadiyyatı bir para məmur oliqarxın əlində cəmləşib, monopoliya, korrupsiya və rüşvətxorluq toplumun iliyinə-qanına işləyib ki, bütün bunlar da sabah üçün yaxşı heç nə vəd eləmir.

Ermənistan sırf xaricdən asılı vəziyyətdədir və ekspertlər hesab edirlər ki, yeni maliyyə böhranı kontekstində bu amil öncə sıravi vətəndaşlara sarsıdıcı zərbələr vuracaq. Sirr deyil ki, bu ölkədə qalan azsaylı əhalinin çox böyük əksəriyyəti illərdir ki, xaricdən göndərilən cüzi "tulapayları" hesabına dolanmaqdadır . Artıq xaricdəki erməni "vətənpərvər"lər – diaspor təşkilatları da əvvəlki kimi, Ermənistana əl tutmaqda çətinlik çəkirlər. Ermənistan mediası yazır ki, indi əhalinin gündəlik tələbat mallarına olan ehtiyacını qismən ödəməsi də böyük müşkülə çevrilib.

Hazırda Ermənistanın "nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım" məsəli baxımından heç bir ümid yeri qalmayıb. Qrantlar minimuma enib, "sələm"çilər ehtiyatlanır və bütün bunlar da ölkədə təsəlli, təskinlik adına heç nə yox, eləcə ciddi təşviş yaradır. Cari problemlərin dərinləşməsində Paşinyan dərəbəyliyinin acı nəticələri başlıca rol oynayır. Məhz bu "özfəaliyyət", bu idarəetmə səfsəfəsi və yarıtmaz siyasət son iki ildə işğalçı dövləti tamamilə keçilməz dalana dirəyib. Necə deyərlər, qaranlıq tunelin sonu görünmür, qarşıda ölgün bir işıq da közərmir.

Əsas etibarilə erməni dilində informasiyalar verən, yəni evin sirrinin kənara çıxmasını istəməyən "4rd.am" saytı yazır ki, ilin əvvəlindən, xüsusilə də mart ayından bəri ölkə paytaxtında çoxlu sayda müəssisə, şirkət, istehsal və ticarət qurumunun, özəl obyektlərin fəaliyyəti dayandırılıb: "İlin ilk yarısında isə təkcə paytaxt Yerevanda iş yerini itirmiş insanların sayı 200 mini ötüb. İnfrastruktur layihələri isə bəzi təmir-rekonstruksiya və inşaat proqramları, habelə mənzil-kommunal təsərrüfatı ilə bağlı kiçik layihələrdir".

Sadə ermənilər artıq çoxdan anlayıblar ki, onların acınacaqlı vəziyyətə düşməsinin əsas səbəblərindən biri də Dağlıq Qarabağ münaqişəsinin mövcudluğudur. Məhz bu münaqişə və Ermənistanın təcavüzkar siyasəti ölkənin sürətlə geriləməsinə səbəb olub. Digər tərəfdən, Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən münaqişənin indiyə qədər öz həllini tapmaması regional sülhə də böyük təhlükə yaradır. Bu səbəbdən Ermənistanın işğalçılıq siyasətinə son qoyulması üçün bu ölkəyə beynəlxalq birlik tərəfindən daha sərt formada təzyiqlər göstərilməlidir.

Erməni mətbuatının verdiyi məlumata görə, aparılan araşdırmalar göstərir ki, miqrasiya templəri artan xətt üzrə davam etsə, 2025-ci ilədək respublikada əhalinin sayı 1,5 milyon nəfər azalacaq. Əhalinin təbii artım səviyyəsi aşağı olduğundan yaşlıların xüsusi çəkisinin davamlı surətdə artması da Ermənistanı böyük sürətlə demoqrafik böhrana yuvarlayır. Bu məsələyə diqqət yetirən "4rd.am" saytı yazır ki, hər il Ermənistanı daha yaxşı həyat axtarışında olan təqribən 80 min erməni tərk edir: "Ermənistanın kənd rayonlarında yoxsulluq və işsizlik insanları doğma yerləri tərk etməyə məcbur edir. Burada əksər hallarda kişilər evlərini tərk edirlər, bütöv kəndlər qadınların öhdəsinə qalır. Bunun səbəbi odur ki, kişilərin ailələrini saxlamaq üçün yeganə pul qazanmaq yolu Rusiyaya getməkdir".

Ermənistandakı demoqrafik problem yerli hakimiyyəti həm narahat edir, həm də bütün zamanlarda olduğu kimi, yenə də onlar bu məsələyə qazanc mənbəyi kimi baxırlar. Hazırda Dağlıq Qarabağda müşahidə olunan qanunsuz məskunlaşdırma cəhdində bu iki amilin hər biri özünü göstərir. Azərbaycanın işğal altındakı torpaqlarında qanunsuz məskunlaşma yolverilməz hadisədir və bu cəhdin qarşısı qəti şəkildə alınmalıdır. Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıçın söylədiyinə görə, ermənilər hər zaman faciə və fəlakətlərdən öz çirkin məqsədləri üçün istifadə ediblər və indi də edirlər. "Avqustun 4-də Livanın paytaxtı Beyrutda baş verən dəhşətli partlayış Ermənistan dövləti və erməni lobbisi üçün mövcud olan işğal faktı ilə bağlı Azərbaycana qarşı növbəti murdar təxribat fürsətinə çevrilib. Bu tarixin ayrı-ayrı dövrlərində baş verən çoxistiqamətli təxribatların davamıdır. Beynəlxalq hüquq, ərazi bütövlüyünə və sərhəd toxunulmazlığına qarşı bütün konvensiyalar qanunsuz məskunlaşdırmanı qəti şəkildə qadağan edir. Ona görə də, beynəlxalq ictimaiyyət, nüfuzlu təşkilatlar Livan ermənilərinin Azərbaycanın işğal altında olan ərazilərinə köçürülməsinə göz yuma bilməz".

Erməni mənbələrinə görə, Ermənistan əhalisinin kütləvi şəkildə ölkədən köçdüyünü və bunun əsas səbəbinin sosial problemlər və müharibə xofu olduğunu diqqətə çatdıran diplomat vurğulayıb ki, Qarabağdakı cinayətkar rejimin başçısı Araik Arutunyan Livanda yerləşən Kilikiya Katolikosluğunun rəhbəri, diaspor ermənilərinin dini lideri I Aramla danışıq əsnasında, Dağlıq Qarabağın Livandan 100-150 erməni ailəsini qəbul etməyə hazır olduğunu bildirməsi riyakarlığın son həddidir. Səfir hesab edir ki, qondarma rejimin rəhbəri bununla yerli ermənilərə də mesaj verir ki, baxın, siz qaçmaq istəyirsiz, amma bu ərazilərə köçmək istəyənlər də var. Bu köç adı altında erməni lobbisinin dünya ermənilərindən pul yığmaq cəhdi onların öz toplumlarına da saygısızlıqdır.

Bəli, Yerevan barrikadalarından çıxaraq hakimiyyətə gələn Nikol Paşinyanın "demokratiya" nağılları beləcə puç olur. Erməni xalqının ona bəslədiyi ümidləri elə dərin çatlar verib ki, daha inam birdəfəlik sarsılıb. Bu fakt həm də onu sübut edir ki, Ermənistanın baş nazirinin siyasət şahmatındakı mövqeləri tamam əldən gedib. Elə hey kortəbii gedişlər edən bu zəkasız oyunçu seytnot vəziyyətində mat olmaq, tam süquta uğramaq ərəfəsindədir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 4 sentyabr.- S.5.